Türküstan №5 3 - 9 fevral 2026-cı il



# Məhəmməd Əmin Rəsulzadə: Şərqdə sekulyar liderlik fenomeni

## Dini irsdən milli təsanüdə, vicdan azadlığından dünyəvi dövlətçiliyə aparan yol



Məhəmməd İsrafiloğlu
*Almaniya*

***Azərbaycan Cümhuriyyətinin qurucuları arasında Məhəmməd Əmin Rəsulzadənin yeri xüsusi və əvəzsizdir. Onun şəxsiyyəti, fəaliyyəti və ideoloji baxışları təkcə milli dövlətçilik tariximiz üçün deyil, ümumilikdə müsəlman Şərqinin modernləşmə prosesləri üçün unikal əhəmiyyət kəsb edir.***

Rəsulzadə dini ailədən – axund ocağından çıxmasına baxmayaraq, dini ənənələrin verdiyi komfortu və ənənəvi mövqeyi rədd edərək, dünyəvi, sekulyar dövlətçiliyin qurulmasına yönəldi. Onun mübarizəsi sübut etdi ki, məhz sekulyar dünyagörüş və universal demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövləti yaradıla bilər.

Rəsulzadə 1884-cü ildə Bakıda axund ailəsində doğuldu. İlk təhsilini mədrəsədə alsa da, daha sonra Bakı Kommersiya Məktəbinə daxil oldu. Onun aldığı dini təhsil Rəsulzadəni dini mühitdə formalaşmış ziyalılar kateqoriyasına daxil etsə də, o, erkən gənclik illərindən etibarən dini dünyagörüşdən daha çox dünyəvi-modernist ideyalara yönəldi. Bu fakt əslində onun sekulyar düşüncəsinin köklərini izah edir: o, dini irsi tamamilə inkar etmədən, lakin onu siyasi və dövlət idarəçiliyi sferasından kənarda saxlayaraq, vətəndaşlıq əsasında bir millət konsepsiyasına üstünlük verdi.

Azərbaycan parlamentinin iclaslarından birində onunla islamçıların təmsilçisi S.M.Qənizadə arasında polemika M.Ə.Rəsulzadənin islamla bağlı yetkin baxışlarını əks etdirir.

***Bu polemikanın predmeti ”Müəssislər Məclisinə seçkilər haqqında” qanun layihəsinin 96-cı bəndi idi, bu bənd din təmsilçilərinin məscidlərdə və kilsələrdə siyasi təbliğat aparmasını qadağan edirdi. M.Ə. Rəsulzadənin bu iclasadakı çıxışı olduqca ibrətamizdir, hətta günümüzlə paralellik təşkil edir .***

Rəsulzadə çıxışında bildirirdi ki: “ Bu məsələyə əsas bir nöqteyi-nəzərlə baxmaq lazımdır. Burada üləma və ruhanilərin heysiyyətinə toxunacaq heç bir şey yoxdur. Birdəfəlik anlamalıyıq ki, indiki zamanda xalq cümhuriyyəti elan etmişiksə, bütün hakimiyyət millətin öz əlindədir və bütün qanunlar xalqın rəyilə hakimiyyəti milliyyə əsasında çıxarılacaq. Xalqın seçdiyi nümayəndələr millət və məmləkətin hansı üsulla idarə olunacağı xüsusunda qanunlar çıxaracaqlar. Belə bir zamanda əsrlərlə bundan əvvəl yaranmış əsasları qurmaq zamanı deyildir. O zaman çoxdan keçmişdir. Əfəndilər! Üləmanın vəzifəsi bir vəzifeyi-diniyyə olduğundan müqəddəsdir. Deyirlər ki, seçki də müqəddəsdir və belə bir müqəddəs işdən ruhaniləri məhrum etmək olmaz. Lakin bunu bilməliyik ki, dini məsələlər başqa, dünya işləri isə bam-başqadır. Əgər diqqətli olsaz görərsiniz ki, dünyəvi məsələlərdə dini məsələlərə xas olan müqəddəslik qətiyyən yoxdur. Dini etiqadlar tənqidin, mühakimənin fövqündədir. Halbuki, siyasi etiqadlar daima tənqid hədəfidir. Bir şey ki, tənqidə və mühakiməyə məhkumdur, onda müqəddəslik aramaq əbəsdir. Bir də gərək diqqət edəsiniz ki, seçkilər millətin azad rəyindən hasil olmalıdır. Ona görə də bütün polis məmurlarının, qorodovoyların və başqa hakimlərin seçki hüquqları əlindən alınır. Bu nə üçündür? Ölkə vətəndaşı olduqları halda onlar niyə seçkidən məhrum edilir? Ona görə ki, bununla başqalarının azad səs vermək hüququ təmin olunur. Bizə deyirlər ki, qorodovoy, polis ağac ilə, qamçı ilə gəldikləri halda, ruhanilər vəz ilə gələcəklər. Fəqət, siz mənə təminat verə bilərsinizmi ki, qorodovoylar qamçı ilə gəldikdə bəzi ruhanilər lənətlər və küfrlərlə gəlməyəcəklər? Qorodovoyun əlində zopa varsa, ruhanilərin də küfrü, lənəti var (Alqışlar).

“ Bu çıxış əsnasında Rəsulzadəyə irad bildirən S.M. Qənizadənin cavabı olduqca sərrastdır.

M.Ə. Rəsulzadə üzünü S.M. Qənizadəyə tutaraq çıxışını davam etdirir: “ Əvət, keçən il bunun təcrübəsini gördük, sizə məxsus olan ruhaninin birinin nə elədiyini gördük. Ona görə də imkan verməriк ki. Allahın evindən istifadə edib, yenidən küfrlər yağdırıb, təşviqat yapmaqla məqsədlərinə nail olsunlar. Bir də əfəndilər, bunu bilməlisiniz ki, üləmanın vəzifəsi bitərəf qalmaqla xalqı haqq yoluna çəkməkdir. Fəqət, insan bir siyasi firqəyə mənsub olursa, bitərəf qala bilməz. Bir zamandakı firqələr rəqabətə çıxmışlar, bir zamandakı emosiyalar coşmuşdur, bir zamandakı firqə şəriətə uyğun olan və olmayan bütün vasitələrlə qarşı tərəfi məğlub etmək istəyir, bir zamandakı əhalinin bir sinfi digərinə qarşı mübarizə və rəqabətə qalxmışdır, belə bir zamanda yeganə bir sülh yeri varsa ki, barışmaq üçün oraya müraciət edilməlidir, o da məsciddir. Belə zamanlarda üləma sülh sözü ilə gəlib firqələrə nəsihət etməlidir. Lakin üləmalar da bu keşməkeşdə desə ki, həqq filan firqənindir, filan firqə isə haqsızdır, o zaman məscidlər bir ixtilaf yeri olar və üləma sülh-səlahə çağırıb, xalqı barışdırmalı ikən, minbərlərdən doğru bilmədiyi firqələr üzərinə küfrlər yağdırmaqla odun üzərinə yağ tökəcəkdir. Çünki mənim məsləkimə minbərdən biri zidd gedərsə, əmin olunuz ki, həmin adam alim də olsa, mən ona etirazımı bildirəcəyəm. Ona qarşı hörmət bəsləməyəcəyəm. İndi söyləyiniz, qalarmı hörməti belə üləmanın? Qətiyyən qalmaz! Əgər istəyirsiniz ki, məscid bir möhtərəm vasitə, sülh və səlah olsun, qoyunuz o bitərəf və müqəddəs qalsın. Əgər istəyirsiniz ki, din nümayəndələrinin heysiyyəti toxunulmaz qalsın, əgər istəyirsiniz ki, məscid məscidliyində bulunsun, onu dünya işlərinə qatmayın, buraxınız orası ancaq ibadət üçün qalsın. Əlhəzər, ruhaniləri siyasətə qarışdırmayın... Bir alim ittihadçı, digəri müsavat, sosialist olursa, bir üləmanın biri çıxıb deyəcək ki, səsinizi filan firqəyə verin, ardınca da mərsiyaxan da çıxıb səsinizi filan firqəyə verin, o yalan deyir desə, o vaxt nə olar? Məhz bu nöqteyi-nəzərdən məscidləri mübarizə aparan siyasi firqələr arasında bir sülh amili kimi saxlamaqdan ötrü bu maddə qəbul edilməlidir ki, məscid ilə minbər bitərəf qalsın. Alimlər xaqlı sülh yoluna çağırsın, məscid də siyasi işlərdə iştirak etməsin. “

***Çox maraqlıdır ki, parlamentin iclasında çoxluq Rəsulzadəni fikirlərini dəstəklədi və verilən qərar da bu yöndə qəbul edildi. Total savadasızlığın hökm sürdüyü, dini təəsübkeşliyin daha üstünlük təşkil etdiyi bir dönəmdə, situasiyada bu qərarı qəbul etdirmək dövrün konteksti baxımından bizlərə indi çox da asan görünməməlidir. Rəsulzadənin dedikləri bir həqiqəti işıq üzərinə çıxarır: hətta dini məsələlərdə belə modernist olmaq gərəkir, yozlaşdırılmış bidat və hürafələrdən qurtulmağın praktik yolları göstərilir, dini siyasətə alət etməyin yanlış olduğu vurğulanır.***

Sekulyar prinsiplərin qanunvericilikdə əksini tapması zamanı ciddi mübahisələr yaranırdı. Məsələn, seçki qanunu, təhsil islahatları və qadınların siyasi hüquqları məsələsində mühafizəkarlarla müasirlər arasında uzun sürən polemikalar aparılmış, bəzi hallarda kompromislər qaçılmaz olmuşdur.

Sekulyar islahatların cəmiyyətin bütün təbəqələri tərəfindən eyni səviyyədə qəbul olunması asan deyildi. Xüsusilə kənd yerlərində dini ənənələrin güclü olması bu ideyaların kütləviləşməsini ləngidirdi. Lakin şəhər mühitində, xüsusilə Bakı və Gəncə kimi mərkəzlərdə dünyəvi islahatlar daha geniş dəstək tapırdı.

Onun məşhur şüarı — “İnsanlara hürriyyət, millətlərə istiqlal” — təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə ünvanlanmış universal çağırış idi. Bu ifadənin semantik qatlarında üç əsas element görünür:

1. İnsanlara hürriyyət — fərdi azadlıqların təmin olunması, dinindən, irqindən, sosial statusundan asılı olmayaraq hər bir insanın hüquqlarının qorunması.
2. Millətlərə istiqlal — xalqların öz müqəddəratını təyin etmə hüququnun tanınması.
3. Sekulyar əsas — dövlətin dini təlimlər əsasında deyil, hüquq və demokratiya prinsipləri əsasında idarə olunması.



Bu baxımdan Rəsulzadənin şüarı Avropada Qərb maarifçiliyinin, Fransız inqilabının idealları ilə səsləşir və eyni zamanda milli-mədəni mühitin tələblərinə uyğunlaşdırılır. Onun Milli təsanüdçülük nəzəriyyəsi də toplumda antaqonist bir şəkildə sinifləşmə, təbəqələşməni rədd edərək “ qızıl orta”nı tapmağı ehtiva edir. Rəsulzadənin ideoloji irsində əsas anlayışlardan biri “milli təsanüd” nəzəriyyəsidir. Bu nəzəriyyə milli dövlətin qurulmasında müxtəlif sosial təbəqələrin, dini və məzhəbi qrupların, siyasi qüvvələrin bir ideya ətrafında birləşdirilməsini nəzərdə tutur. Məsələ ondadır ki, Rəsulzadənin bu yanaşması sekulyarlıqla nə dərəcədə bağlıdır? Rəsulzadəyə görə, millətin təşkilində əsas amil yalnız dini və ya məzhəbi bağlılıq deyil, dil, tarix, mədəniyyət və milli dövlətçilik ideyasıdır. O, milli təsanüdü fərqliliklərin aradan qaldırılması yox, onların bir milli çərçivədə ahəngdar şəkildə birləşdirilməsi kimi başa düşürdü. Milli təsanüd konsepsiyası mahiyyətcə sekulyardır. Çünki:

• Millətin əsasını dini birlik yox, mədəni və tarixi birlik təşkil edir.
• Din cəmiyyətin mənəvi dəyərləri arasında öz yerini saxlayır, lakin siyasi identiklikdə həlledici faktor olmur.
• Beləliklə, milli həmrəylik dini üstünlükdən çox, sekulyar dövlətçilik ideyası üzərində qurulur.

***Dinə münasibət məsələsində Rəsulzadə dini inkar etmirdi. O, İslamı xalqın mədəni-mənəvi həyatının ayrılmaz parçası sayırdı. Lakin siyasətin dini prinsiplərə əsaslanmasının əleyhinə idi. Onun üçün din vicdan azadlığının obyekti idi, dövlətin quruluş prinsiplərinə isə millilik və demokratiya rəhbərlik etməli idi. Milli təsanüd nəzəriyyəsi həm də demokratik düşüncəyə söykənirdi...***

**(ardı gələn sayımızda)**